**UOT 327.56**

***Aynur Əlişanova***
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının doktorantı***
***aynuralishanova7@gmail.com***

# MÜNAQİŞƏLƏRİN NİZAMLANMASI PROSESİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU: TARİXİ ƏNƏNƏLƏR, HÜQUQİ ƏSASLAR, GEOSİYASİ REALLIQLAR

***Xülasə***

*Münaqişə dünya siyasətinin mühüm və daim mövcud olan komponentidir. Beynəlxalq münasibətlər sisteminin iştirakçısı olan aktorların hər biri yarandığı dövrdən bəri münaqişələrin nizamlanması prosesində bu və ya digər formada iştirak etmişdir. XX əsrin əvvəllərindən etibarən dünyada münaqişələrin nizamlanması prosesində dövlətlərlə yanaşı, beynəlxalq təşkilatların rolu da ön plana çıxmışdır. Nizamlanma prosesində beynəlxalq təşkilatların rolu tarixi şəraitdən, münaqişələrin xarakteri və miqyasından asılı olaraq dəyişmişdir. Məqalədə qarşıya qoyulan başlıca məqsəd münaqişələrin nizamlanması prosesində beynəlxalq təşkilatların tarixən oynadıqları rolun təhlil edilməsi, tənzimləmədə beynəlxalq təşkilatların iştirakının hüquqi əsaslarının müəyyənləşdirilməsi və bunun geosiyasi gerçəkliklər kontekstində qiymətləndirilməsidir.*

*Mövzunun tədqiqi zamanı tarixi dövrlərdən asılı olaraq idealizm və realizm nəzəriyyələrinə istinad edilmişdir. Müqayisəli təhlil, sistemli yanaşma, analitik təhkiyyə tədqiqatın aparılması zamanı istifadə olunan başlıca metodlardır. Bunlarla yanaşı beynəlxalq təşkilatlarının tənzimlənmə proseslərində iştirakçının hüquqi əsaslarının müəyyənləşdirilməsi üçün beynəlxalq təşkilatların sənədlərinin kontent analizi aparılmışdır.*

*Təhlillər nəticəsində gəlinən qənaət ondan ibarətdir ki, XIX əsrin başlanğıcında yaranan ilk beynəlxalq təşkilatların qarşısında siyasi münaqişələrin həlli məsələsi dayanmamışdır. Lakin XX əsrin əvvəllərindən etibarən dünyada meydana çıxan beynəlxalq təşkilatların demək olar ki, əksəriyyətinin başlıca fəaliyyət istiqamətləri sırasında münaqişələrin həlli məsələsi ön planda olmuşdur. Münaqişələrin nizamlanması prosesində iştirakın hüquqi əsasları bir sıra təşkilatların quruluş müqavilələrində və nizamnamələrində əksini tapmışdır. Bəzi təşkilatlar isə fəaliyyətlərinin genişlənməsi kontekstində birbaşa münaqişələrin nizamlanması ilə bağlı sənədlər qəbul etmək və ya qəbul edilən sənədlərdə bununla bağlı müddəaları müəyyənləşdirmək məcburiyyətində qalmışlar. Hazırki geosiyasi gerçəkliklər fonunda təşkilatların nizamlanmada iştirakının səmərəliliyi xeyli dərəcədə aşağı düşmüşdür. Bu baxımdan bir çox beynəlxalq təşkilatlarla bağlı islahat çağırışları meydana çıxmışdır.*

***Açar sözlər:*** *münaqişə, beynəlxalq təşkilat, nizamlanma, BMT, ATƏT, Avropa İttifaqı, NATO*

## *Giriş*

Məlum olduğu kimi, 1648-ci ildə imzalanan Vestfal sülhü və 1815-ci ildə keçirilən Vyana konqresi beynəlxalq sülh və təhlükəsizliyin müstəqil dövlətlərin suverenlik hüquqlarına sarsılmaz hörmət və aparıcı dövlətlər arasında qüvvələr tarazlığı sayəsində təmin edilməsi qaydasını müəyyənləşdirmişdir. Heç də təsadüfi deyildir ki, Vestfal sistemi hələ də bütün dünyada beynəlxalq siyasət üçün model olaraq qalır və sülhlə möhkəmlənmiş dövlət suverenliyi konsepsiyası hələ də müasir beynəlxalq müqavilə və konvensiyalar üçün əsasdır [13, s.91]. Bu prinsiplər və qüvvələr tarazlığı uzun müddət beynəlxalq siyasətdə həlledici rol oynadı. Ayrı-ayrılıqda hər bir dövlət isə təhlükəsizliyin və tərəqqinin təminatçısı idi. Hər hansı bir dövlətin ərazisində baş verən bütün hadisələr və siyasi proseslər onun daxili işi hesab edilirdi və onun qanunvericilik normaları ilə tənzimlənməli idi. XIX əsrdən etibarən isə beynəlxalq siyasətdə təşkilatların rolu artmağa başladı.

## *Tarixdən günümüzə beynəlxalq münaqişələrin nizamlanması prosesində təşkilatlar*

Yaradıldıqları ilk dövrlərdə beynəlxalq təşkilatlar sülhün və təhlükəsizliyin təmin edilməsi, siyasi münaqişələrin həlli prosesində elə də ciddi rola malik olmamışdılar. 1815-ci ildə yaradılan Reyn çayında Naviqasiya nəzarəti üzrə Mərkəzi Komissiyası, 1865-ci ildə yaradılann Beynəlxalq Telekommunikasiya İttifaqı, 1874-cü ildə təsis edilən Ümumdünya Poçt İttifaqı, 1890-cı ildə Beynəlxalq Dəmiryol Xətləri Üzrə Yük Daşımaları İttifaqı ilk beynəlxalq təşkilatlar olaraq siyasi xarakterə malik deyildilər. Onların qarşısında başlıca olaraq inzibati əməkdaşlığın təmini vəzifəsi qoyulurdu. O dövrdəki dünyada başqa cür ola da bilməzdi, belə ki, qüdrətli dövlətlərin öz məqsədlərinə nail olması üçün müharibə yolu qanuni üsul hesab edilirdi. Müharibələrdən dövlətlərarası münasibətlərin tənzimlənməsi üsulu kimi istifadənin məhdudlaşdırılmasının vacibliyi siyasi şüurda tədricən dərk edilirdi [35, s. 145-149]. Bu məqsədlə 1899 və 1907-ci illərdə Haaqada keçirilən sülh konfranslarında bir sıra beynəlxalq aktlar qəbul edildi. Bu aktlar başlıca olaraq müharibə qanunlarına və ənənələrinə aid idi.

I Dünya müharibəsindən sonra isə beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin olunmasında dövlətlərlə yanaşı, beynəlxalq təşkilatların rolu artmağa başladı. 1918-ci ildə ABŞ prezidenti Vudro Vilson özünün məşhur “On dörd bənd” nitqində *“Böyük və kiçik dövlətlərə siyasi müstəqillik və ərazi bütövlüyünə qarşılıqlı təminat vermək məqsədi ilə xüsusi müqavilələr əsasında xalqların ümumi birliyini”* yaratmaqla bağlı çağırış etdi [24, s. 536]. Bu ideya əsasında və 1919-cu il Versal Sülh Konfransı nəticəsində Beynəlxalq Əmək Təşkilatı Millətlər Liqası yaradıldı [8, p. 35]. Bu təşkilat sülhün və təhlükəsizliyin təmin edilməsi üçün xalqlar arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədini güdürdü. 1920-ci il yanvarın 10-da qüvvəyə minən Millətlər Cəmiyyətinin nizamnaməsində əsas diqqət müharibələrin qarşısının alınması məsələlərinə və yaranan ziddiyyətlərin münsiflərin təhqiqatı yolu ilə sülhlə həll olunması məsələlərinə yönəldilmişdi. Nizamnamənin 11-ci maddəsində qeyd edilirdi ki,

*"hər hansı bir müharibənin və ya müharibə təhlükəsinin Liqanın hər hansı bir üzvünə birbaşa və ya dolayısı ilə aidiyyəti varsa, bu, bütövlükdə Liqanı maraqlandırır və Liqa millətlər dünyasını real şəkildə qoruya biləcək tədbirlər görməlidir*" [31, s.42].

Lakin Millətlər Liqası İkinci Dünya müharibəsinin baş verməsinin qarşısını ala bilmədi. Bu təşkilatın fəaliyyəti formal olaraq 1946-cı ildə dayanmış oldu və onun əvəzinə yeni beynəlxalq hökumətlərarası təşkilat – Birləşmiş Millətlər Təşkilatı təsis edildi. 1945-ci il iyunun 26-da ABŞ-ın San-Fransisko şəhərində BMT-nin nizamnaməsi qəbul edildi və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. II Dünya müharibəsindən sonra dünyada sülühn qorunması prosesində beynəlxalq təşkilatların rolu sürətlə yüksəlməyə başladı. BMT kimi universal qurumlarla yanaşı, bu sahədə fəaliyyət göstərən xüsusi dövlətlərarası və dövlətlərüstü təşkilatlar da yaradıldı. Bundan sonrakı dövrdə dünyada beynəlxalq təşkilatların sayı sürətlə artmağa başladı, onların böyük bir qismi münaqişələrin nizamlanmasını, onların qarşısını alınmasını qarşıya məqsəd olaraq qoymuşdu.

### *Münaqişələrin nizamlanması prosesində beynəlxalq təşkilatların iştirakı və hüquqi əsaslar*

BMT nizamnaməsinin ilk maddəsinə görə təşkilatın başlıca hədəfləri və məqsədləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, millətlər arasında dostluq münasibətlərinin inkişafı, humanitar xarakterli beynəlxalq problemlərin həlli ilə bağlı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, insan haqlarına və əsas azadlıqlara hörmətin təşviqi və inkişaf etdirilməsi, bu ümumi məqsədlərə nail olmaqdan ötrü millətlərin fəaliyyətlərinin uzlaşdırılması üçün mərkəz olmaq zərurətindən ibarətdir.

Faktiki olaraq, yaradıldığı dövrdən etibarən BMT-nin əsas vəzifəsi münaqişələrə yol verməməkdən ibarət olmuşdur. Belə ki, BMT-nin sabiq baş katibi Kofi Annan təşkilatın bununla bağlı qarşısında duran vəzifələrdən bəhs edərkən yazırdı: *"Bizim məqsədimiz – əgər bacararıqsa, münaqişəyə yol verməmək üçün, baş verdiyi zaman onu dayandırmaq üçün müdaxilə etməkdir, və ya bu məqsədlərin heç birinə nail olmaq mümkün olmazsa, onda ən azı onu saxlamaq və genişlənməyə yol verməməkdir"* [27, s. 4].

BMT-nin nizamnaməsində daxili münaqişələri tənzimləmək üçün bu təşkilata birbaşa müdaxilə etmə hüququ verilməsi haqqında normaların olmaması [30, s. 130-131], heç də onu özünün başlıca vəzifəsi olan – beynəlxalq sülhün və təhlükəsizliyin qorunması missiyasını yerinə yetirmək məsuliyyətindən azad etmir. Nə dövlətlərin məsul nümayəndələri arasında, nə də tədqiqatçılar arasında elə birisi yoxdur ki, dövlətin daxilində baş verən münaqişənin dayandırılmasına yönəldilən tədbirlərin qəbul edilməsi üçün nizamnamənin 2-ci maddəsinin 7-ci bəndindəki müddəalardan istifadəyə etiraz etsin. Qeyd etmək lazımdır ki, bu bənd sülhə təhlükə törədə bilən, sülhün pozulması və təcavüz aktları halları istisna olmaqla dövlətin daxili işlərinə müdaxilə edilməsinin qadağan olunması haqqındadır. Dövlətdaxili hərbi münaqişənin tənzimlənməsində BMT-nin iştirakı o hallarda məqbul hesab edilir ki, bu münaqişələr beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurur və beynəlxalq sülhü və təhlükəsizliyi

təhdid edir. BMT-nin məqsədlərinin reallaşdırılmasına maneçilik törədilməsilə beynəlxalq hüququn və BMT-nin əsas prinsiplərinin pozulması hallarında təşkilatın Baş Məclisi, Təhlükəsizlik Şurası və BMT-nin baş katibinin rəhbərliyi ilə Katiblik nizamnaməyə uyğun olaraq dövlətin daxili işinə müdaxilə edilməsini həyata keçirmək hüququna malikdir.

BMT-nin əsas orqanlarının müxtəlif funksiyaları yerinə yetirmələrinə baxmayaraq, onların fəaliyyəti təşkilatın əsas məqsədlərinə nail olmağa yönəlmişdir. Ona görə də münaqişənin tənzimlənməsində BMT-nin müdaxiləsindən bəhs edərkən təşkilatın sülhün qorunması funksiyasını yerinə yetirən bütün əsas orqanlarının fəaliyyətlərinə diqqət yetirmək zəruridir. Münaqişələrin tənzimlənməsində başlıca olaraq BMT Baş Məclisi, Təhlükəsizlik Şurası və Katiblik iştirak edir.

BMT-nin Baş Məclisi təşkilatın nizamnaməsi çərçivəsində hər hansı bir məsələni və ya problemi müzakirə etmək üçün geniş səlahiyyətlərə malikdir. Baş Məclis dünyada sülhün və təhlükəsizliyin qorunması işində əməkdaşlığın ümumi prinsiplərini nəzərdən keçirməyə və bu prinsiplərlə bağlı üzv dövlətlərə və ya Təhlükəsizlik Şurasına tövsiyələr verməyə, Təhlükəsizlik Şurasının diqqətini beynəlxalq sülhü və təhlükəsizliyi təhdid edə bilən vəziyyətlərə yönəltməyə, təşkilatın hər hansı bir orqanının səlahiyyətlərinə və funksiyalarına aid olan hər bir məsələ üzrə müzakirələr aparmağa və tövsiyələr verməyə səlahiyyətlidir [20].

BMT-nin tarixində müdaxilə səlahiyyətlərinin Baş Məclisə verilməsi cəhdləri olmuşdur. 1950-ci il noyabrın 3-də BMT-nin Baş Məclis "Sülh naminə birlik" adlı 377 (V) saylı qətnamə qəbul etdi. ABŞ-ın o zamanı dövlət katibi Din Aşesonun layihəsi əsasında qəbul edilmiş qətnamə Koreya münaqişəsinin həllində Sovet İttifaqının Təhlükəsizlik Şurasının daimi üzvü kimi pozucu rolunu bloklamaq məqsədi daşıyırdı [2, s.219]. Burada qeyd edilirdi ki, Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər arasında yaranan fikir ayrılıqları beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üzrə vəzifələri yerinə yetirməyə imkan vermədikdə qlobal təhdidləri nəzərə alaraq Baş Məclis təşkilatın üzvlərinə kollektiv tədbirlərin görülməsi üçün lazımi tövsiyələr təqdim etmək məqsədilə bu məsələyə baxa bilər. Baş Məclisin bu məqsədlə həyata keçirə biləcəyi tədbirlər sırasında sülhün pozulması və ya təcavüz aktı hallarında beynəlxalq sülhün və təhlükəsizliyin qorunması və ya bərpası üçün lazım gələrsə, silahlı qüvvələrin tətbiq edilməsi də yer alır [23, s. 10-12]. Belə hallarda xüsusi fövqəladə sessiyanın çağrılması nəzərdə tutulur. Əslində bu qətnamə "soyuq müharibənin" təzahürü idi və onun davamı kimi 1956-cı ildə NATO ilə Varşava müqaviləsinə üzv olan ölkələr arasındakı qarşıdurma nəticəsində baş verən Süveyş böhranına Baş Məclisin müdaxilə etmək cəhdini göstərmək olar.

Bununla belə bütün hallarda dünyadakı münaqişələrin həllində fəal rol alan və əslində onların praktiki olaraq tənzimlənməsini həyata keçirən əsas BMT orqanı Təhlükəsizlik Şurasıdır. BMT nizamnaməsinin 41-ci maddəsinə əsasən hər hansı bir şəkildə sülh pozulduqda və təhlükə altında olduqda Təhlükəsizlik Şurası ilk növbədə silahlı qüvvələrdən istifadə ilə bağlı olmayan tədbirlər qəbul etmək hüququna malikdir [21].

Aparılan təhlillər gələcəkdə Təhlükəsizlik Şurasının səlahiyyətlərinin daha da genişlənməsinin proqnozlaşdırılmasına imkan verir. BMT-də bu istiqamətdə islahatların aparılmaması əks halda təşkilatın tədricən nüfuzunun daha da azalmasına gətirib çıxara bilər.

BMT-nin münaqişələrin tənzimlənməsində görünən siması faktiki olaraq bir çox hallarda təşkilatın baş katibidir. O, xüsusi siyasi səlahiyyətlərə malikdir. Təşkilatın nizamnaməsinin 99-cu maddəsinə görə baş katibin sülh və təhlükəsizlik üçün təhlükə törədə biləcək hər hansı bir məsələ haqqında Təhlükəsizlik Şurasını məlumatlandırmaq hüququ vardır [22]. BMT baş katibi ona həvalə edilmiş siyasi funksiyalarla yanaşı bir çox hallarda daxili silahlı münaqişələrin tənzimlənməsi üçün vasitəçilik funksiyasını da yerinə yetirir.

XX əsrin ikinci yarısının xarakterik cəhətlərindən biri BMT kimi universal təşkilatla yanaşı, regional təşkilatların yaradılması olmuşdur. Bu təşkilatların fəaliyyəti ayrıca bir coğrafi bölgənin məhdud iştirakçıları çərçivəsində ümumi hədəf və məqsədləri olmaqla müharibə və sülh məsələlərinin həllinə yönəlmişdir.

Regional səviyyədə münaqişələrin nizamlanmasında iştirak edən ən mühüm təşkilatlardan biri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır. Amerika, Avropa və Asiyadan 57 ölkənin iştirak etdiyi bu qurumun formalaşdırılmasında başlıca məqsəd Avropada dövlətlər arasında fikir ayrılıqlarının aradan qaldırılması, etimad mühitinin formalaşdırılması, böhranların idarə edilməsi, münaqişələrdən sonrakı mərhələdə münasibətlərin bərpası proseslərinə kömək etməklə sabitlik, sülh və demokratiyaya nail olmaqdır. ATƏT-in sələfi olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) XX əsrin 70-ci illərinin əvvəllərində meydana çıxmış, 1975-ci ildə Helsinkidə 33 Avropa ölkəsinin, həmçinin ABŞ və Kanadanın dövlət başçıları tərəfindən Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin Yekun Aktı qəbul edilmişdir [5, s.72]. 1990-cı ilə qədər ATƏM bir sıra görüşlər və konfranslar kimi fəaliyyət göstərmişdir. 1990-cı ildə Paris Sammiti ATƏM-in strukturunu iclas və konfranslardan daimi qurumlara çevirdi. Sammit zamanı ATƏM Şərqlə Qərb arasında dialoq və danışıqlardan uzaqlaşaraq yeni yol tutdu. Təşkilatın yeni məqsədi Avropada baş verən tarixi dəyişiklikləri idarə etmək və soyuq müharibədən sonrakı dövrün yeni çağırışlarına cavab vermək idi. Bu inkişaf daimi institutlara və əməliyyat imkanlarına ehtiyac yaratdı. Bundan əlavə, ad 1994-cü ildə Budapeşt sammiti 4 zamanı ATƏM-dən ATƏT-ə dəyişdirildi.

Hazırda ATƏT-in fəaliyyəti çoxşaxəlidir. Buraya silahlara nəzarət, sərhədlərin idarə olunması, terrorizmlə mübarizə, münaqişələrin qarşısının alınması və həlli, gender bərabərliyi, azlıqların müdafiəsi, qanunun aliliyinin və insan hüquqlarının təşviqi, seçkilər, ətraf mühitin mühafizəsi fəaliyyətləri və s. daxildir [19].

Helsinki sənədində ATƏT-in münaqişələrin nizamlanmasında missiyası əksini tapmışdır. Təşkilatın nizamlama üçün müəyyənləşdirdiyi alət və mexanizmlər klassik dövlətlərarası və dövlətdaxili münaqişələr üçün nəzərdə tutulmuşdur. Adətən ATƏT iştirakçı dövlətlər arasında üçüncü tərəf vasitəçi rolunu oynayır. Təşkilatın bir sıra struktur və institutlar münaqişələrin idarə olunmasında iştirak səlahiyyətinə malikdir.

Qurumun sədrlik institutu böhran və ya münaqişə vəziyyətləri ilə məşğul olmaq üçün birbaşa səlahiyyətlidir. ATƏT sədri münaqişənin həlli üçün şəxsi nümayəndələr təyin edə bilər. Təşkilatın katibliyinin tərkibində münaqişələrin qarşısının alınması mərkəzi vardır. Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və Milli Azlıqlar üzrə Ali Komissarlıq erkən xəbərdarlıq və münaqişələrin qarşısının alınması məsələlərinə diqqət yetirir [12].

Müasir dünyada dövlətlərüstü təşkilat olan Avropa İttifaqının (Aİ) da münaqişələri özünəməxsus nizamlama vasitələri vardır. Mübahisə və münaqişələrin qarşısının alınması, aradan qaldırılması, dinc yolla tənzimlənməsi, eləcə də əsas insan haqlarının və azadlıqlarının qorunması haqqında müddəalar bir qayda olaraq təşkilatın ümumi siyasi xarakterli təsis sənədlərinə daxil edilir. Məlum olduğu kimi, Aİ 1992-ci ildə imzalanmış Maastrixdə imzalanmış Avropa İttifaqı haqqında sazişə əsasən üç iqtisadi inteqrasiya birliyinin – Avropa Kömür və Polad Birliyi, Atom Enerjisi üzrə Avropa Birliyi və Avropa İqtisadi Birliyinin bazasında yaranmışdır. Maastrix sazişində təsbit edilmiş ümumi xarici siyasət və təhlükəsizlik siyasəti çərçivəsində Avropa İttifaqı daxili silahlı münaqişələrə müdaxiləni həyata keçirir. Bu müqavilədə hələ 1948-ci ildə yaradılmış Qərbi Avropa Birliyinin humanitar, xilasedici və sülhməramlı xarakterli məqsədlərini, həmçinin böhranların və sülhün bərpası məqsədilə fəaliyyət göstərən zərbə qüvvələrinin məqsədlərini yerinə yetirmək üçün əməkdaşlıq və yardım edilməsi nəzərdə tutulurdu. 1997-ci ilin Amsterdam müqaviləsi Qərbi Avropa Birliyinə müdafiə sahəsində operativ səlahiyyətlər verməklə onu Avropa İttifaqının ayrılmaz hissəsinə çevirdi. Qərbi Avropa Birliyi Balkan ölkələrində humanitar, xilasedici, sülhməramlı əməliyyatlar, böhranların tənzimlənməsi üzrə, o cümlədən sülhə məcbur edilməsi üzrə silahlı qüvvələrin fəaliyyətinin yerinə yetirilməsində aparıcı rol oynadı. Buna baxmayaraq, o, getdikcə öz funksiyalarını daha çox təhlükəsizlik üzrə birgə xarici siyasət çərçivəsində inkişaf edən AB-nin bölmələrinə təhvil verirdi.

1999-cu il iyunun 3-4-ü tarixlərində Avropa İttifaqının Köln sammitində təhlükəsizlik və müdafiə sahəsində müştərək Avropa siyasətinin işlənib hazırlanması və reallaşdırılması haqqında qərar qəbul edilmişdir [18, s. 90]. Sənəddə silahlı böhranların baş verdiyi şəraitlərdə sülhün təmin edilməsi üzrə NATO infrastrukturuna arxalanaraq müstəqil hərbi əməliyyatların həyata keçirilməsi üçün səlahiyyətlərin verilməsi, eləcə də bunun üçün lazım olan Aİ orqanlarının (o cümlədən təhlükəsizlik siyasəti üzrə komitə, hərbi komitə, qərargah və s.) yaradılması nəzərdə tutulurdu. Bu, mahiyyətcə Qərbi Avropa Birliyinin tamamilə Avropa İttifaqının strukturuna inteqrasiya olması demək idi.

Avropa İttifaqı Şurasının 1999-cu il dekabrın 10-11-də Helsinkidə keçirilən zirvə toplantısında "Avropa İttifaqının mülki potensialının inkişafı üzrə başlıca hədəfi" adlı sənəd qəbul edildi. Bu sənəddə "qaynar nöqtələr"də təşkilatın xarici siyasətinin həyata keçirilməsi üçün ümumi sayı 50-60 min nəfər olan çevik hərbi qüvvəsinin yaradılması nəzərdə tutulmuşdu [33, s. 33]. Bir il sonra Avropa İttifaqının mülki potensialının və böhranın tənzimlənməsi komponentlərinin daha da inkişaf etdirilməsi haqqında qərar qəbul edildi. Həmçinin ittifaq çərçivəsində böhranın tənzimlənməsinin

mülki aspektləri üzrə Komitə (CivCom) yaradıldı. Bu komitə strategiyanın və mülki əməliyyatlar üzərində nəzarətin işlənib hazırlanmasını həyata keçirir [6].

2001-ci il fevralın 26-da Fransanın Nitsa şəhərində Aİ-nin üzv dövlətləri Maastrixt müqaviləsinə düzəlişlər qəbul etdilər. Düzəlişlərə əsasən Aİ-nin tapşırığı ilə Qərbi Avropa Birliyinin humanitar aksiyalar və ya sülhün qorunması və möhkəmləndirilməsi üzrə əməliyyatlar aparması nəzərdə tutulmamışdır. Təkcə o qeyd olunmuşdur ki, bu maddə Qərbi Avropa Birliyi və NATO çərçivəsində iki və ya daha çox üzv-dövlətlər arasında ümumi əməkdaşlığa zidd olmayan səviyyədə ikitərəfli qaydada daha sıx əməkdaşlığın inkişaf etdirilməsinə qarşı maneə deyil [7]. Beləliklə, Nitsa müqaviləsinin qəbul edilməsilə Aİ öz imkanları hesabına müstəqil şəkildə humanitar aksiyaları, sülhün qorunması və möhkəmləndirilməsi üzrə əməliyyatları həyata keçirməyə başladı. Halbuki, sözügedən sənədin qəbul edilməsinə qədər bu tədbirlərin görülməsi Qərbi Avropa birliyinə həvalə edilmişdi.

Adı çəkilən müqavilə və qərarların məzmun təhlili əsasında belə nəticəyə gəlmək olur ki, bu sənədlər Aİ üçün münaqişələrin tənzimlənməsi istiqamətində yeni fəaliyyət istiqaməti açır. Böhranların tənzimlənməsinə dair tələbatla bağlı olaraq Avropa İttifaqının bu fəaliyyəti də genişlənməkdədir. Böhran və münaqişələrin tənzimlənməsi Avropanın təhlükəsizlik və müdafiə siyasətinin mərkəzi elementinə çevrilmişdir və Aİ dünya miqyasında fəaliyyətinin coğrafiyasını genişləndirməkdədir. 1999-cu ildə qəbul edilmiş Köln sənədinə əsasən Aİ-nin daxili silahlı münaqişələrin tənzimlənməsi üçün NATO-nun hərbi qüvvələrindən istifadə etmək hüququ vardır.

1948-ci ildə Boqotoda keçirilən Amerika qitəsi dövətlərinin IX konfransında yaradılmış Amerika Dövlətləri Təşkilatının da fəaliyyətinin başlıca istiqamətlərindən birini münaqişələrin nizamlanması məsələsi təşkil edir. Təşkilatın qurulmasında məqsəd sülh və təhlükəsizliyin gücləndirilməsi, üzv dövlətlər arasında mübahisə doğuran məsələlərin sülh yolu ilə həlli üçün səylərin göstərilməsi olmuşdur [3, s.92]. Təşkilatın Demokratik və Siyasi Məsələlər Departamentinin tərkibində Dialoqun Təşviqi və Münaqişələrin Həlli üzrə Xüsusi Bölmə fəaliyyət göstərməkdədir.

55 Afrika ölkəsini birləşdirən Afrika İttifaqı qitədə sülh və təhlükəsizliyin təşviqi, münaqişələrin qarşısının alınması, idarə edilməsi və həllini qarşıya məqsəd qoymuşdur. 2013-cü ildə qəbul edilmiş Afrika İttifaqının "Gündəm 2063" proqramında münaqişələrin tənzimlənməsi ilə bağlı mühüm vəzifələr nəzərdə tutulmuşdur [1, s. 1-20].

1945-ci il martın 22-də təsis edilmiş Ərəb Dövlətləri Liqası da regional münaqişələrin nizamlanması prosesində müəyyən rola malik olan regional təşkilatlardan biridir. Ərəb Liqasının Xartiyasında ərəb ölkələri arasında mübahisələrin sülh yolu ilə həlli prinsipi əksini tapmış və güc tətbiqinin yolverilməzliyi vurğulanmışdır [4]. Xartiya münaqişələrin nizamlanması ilə bağlı hər hansı xüsusi vasitəçilik mexanizmlərini müəyyən etmir. Bununla belə bu məqam Ərəb Liqasının bir sıra münaqişələrdə fəal və bəzi hallarda qəti şəkildə iştirakına mane olmamışdır [26, s. 300-301]. Xüsusən, 1961-ci ildə İraq və Küveyt arasındakı böhran zamanı sülhməramlı qüvvələrdən istifadə edilməsi, 1976-cı ildə Livandakı proseslərdə, İraqın Küveytə təcavüzü ilə bağlı əsas qərarın qəbul edilməsi zamanı Ərəb Dövlətləri Liqası aktiv şəkildə prosesə daxil olmuşdur.

Müstəqil Dövlətlər Birliyi, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) kimi regional və subregional təşkilatlar da zaman-zaman müəyyən bölgələrdə, xüsusən keçmiş Sovet İttifaqı respublikalarında münaqişələrin həlli ilə bağlı müəyyən mexanizmlər formalaşdırmağa cəhdlər göstərsələr də bu ya üzv-dövlətlər arasında məsələyə münasibətdə ikili standartların mövcudluğu, ya da geosiyasi şərait səbəbindən səmərəli olmamışdır. Məsələn GUAM çərçivəsində münaqişələrin tənzimlənməsi iləm bağlı məcburi hüquqi qüvvəsi olmayan çoxlu sayda sənədlərin qəbulunu nəzərdə tuturdu [37, s. 10-13]. Başlanğıcda GUAM-ın xarakterik cəhəti onun Avropa və beynəlxalq strukturlara istiqamətlənməsi olmuşdur. Birliyin təşəbbüskarları MDB çərçivəsindən kənarda fəaliyyət göstərirdilər. Bununla yanaşı, təşkilatın məqsədləri haqqında da müxtəlif fikirlər söylənilirdi. Qeyd edilirdi ki, birliyin birbaşa əsas məqsədi ona daxil olan dövlətlərin iqtisadi, xüsusilə də energetika sahəsində azadlığını təmini, Asiya (Xəzər)-Qafqaz-Avropa marşrutu üzrə enerji daşıyıcılarının tranzitinin inkişaf etdirilməsidir. Bu ölkələri təkcə müstəqilliyi möhkəmləndirən amillər birləşdirmirdi. Azərbaycan, Gürcüstan və Moldovanın ərazilərində münaqişələr mövcud idi. Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində yaranmış münaqişə, gürcü-abxaz və Tsxinvali problemlər, Dnestryanı bölgədəki münaqişə ölkələrin ərazi bütövlüyünün pozulması, təcavüzkar separatçı niyyətlərin qurbanları olan milyonlarla qaçqın və köçkünü əziyyətlərə, müsibətlərə düçar etmiş etnik təmizləmələrdən yaranmışdı [16, s. 522].

Dövlətlər bu cür təşkilatlarla yanaşı II Dünya müharibəsindən sonra bir sıra kollektiv təhlükəsizlik təşkilatları da yaratmışlar. İkinci Dünya müharibəsindən sonra bir sıra kollektiv təhlükəsizlik təşkilatları yarandı. Hazırda Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) bu kateqoriyadan olan təşkilatların ən bariz örnəkləridir.

NATO-nun 1949-1991-ci illər tarixi faktiki olaraq Varşava Müqaviləsi Təşkilatında birləşmiş olan sosialist dövlətlərinin hərbi bloku ilə qarşıdurmadan ibarət olmuşdur. Varşava Müqaviləsi Təşkilatı ləğv olunduqdan sonra NATO-nun təsirinin bütün dünyaya yayılması üçün yeni imkanlar yarandı. Bu bir sıra amillərlə bağlı olmuşdur. Həmin amillər sırasında 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində dünyada, xüsusən Balkan yarımadasındakı münaqişələri, təhlükəsizliyin yeni sisteminə yaranan ehtiyac olmuşdur. Belə bir şəraitdə dünyada baş verən mürəkkəb proseslərin qarşısını almaq üçün fəal müdaxilələr tələb olunurdu. Onları siyasi bəyanatlarla tənzimləmək çətin idi [16, s. 439].

Amerikalı tədqiqatçı Kristiana Mateyi də yazır ki, yeni təhlükəsizlik mühitində bu məqsədlərə siyasi vasitələrlə yanaşı, təhlükəsizlik və sabitliyin iqtisadi, sosial və ekoloji ölçülərini nəzərə almaqla nail olmaq olardı [11, s. 26]. Aparılan təhlillərdən aydın olur ki, NATO XX əsrin son onilliyində öz səylərinin böyük hissəsini fəaliyyətinin davam etdirilməsinə haqq qazandırmaq yollarını axtarmağa və yeni strateji konsepsiyaların və missiyaların müəyyənləşdirilməsinə sərf etmişdir. Sülhü müdafiə etmək üçün yaradılmış NATO soyuq müharibədən sonra özünü sülhü təşviq edən bir təşkilata çevirməyə cəhd etdi. 1991-ci ildə Romada qəbul edilmiş NATO-nun Strateji

Konsepsiyası təhlükəsizliyə geniş yanaşmanı təsvir edir və Alyansın təhlükəsizlik siyasətinin siyasi və hərbi elementlərini birləşdirir. NATO-nun yeni gündəliyi Mərkəzi və Şərqi Avropada münaqişələrin qarşısının alınması, təhlükəsizliyini və sülhün təmin edilməsini əhatə edirdi.

2010-cu il noyabrın 19-20-də Lissabonda NATO ölkələrinin dövlət və hökumət başçılarının yüksək səviyyədə keçirdikləri toplantısında qəbul edilən "Şimali Atlantika Müqaviləsi Təşkilatının üzvlərinin müdafiəsi və təhlükəsizliyinin təmin edilməsinə dair Strateji Konsepsiya" haqqında yeni sənəd münaqişələrin nizamlanması ilə bağlı məsələləri də əks etdirirdi [32]. "Fəal iştirak, müasir müdafiə" adlandırılan bu Strateji Konsepsiya NATO-nun növbəti 10 il üçün strateji hədəflərini müəyyənləşdirirdi. NATO bu konsepsiyada şəxsiyyətin azadlığı, demokratiya, insan haqları və qanunun aliliyi dəyərlərinə və prinsiplərinə sadiqlik əsasında qurulan unikal birlik kimi təsvir edilirdi [32]. Burada NATO-nun üç ən başlıca məqsədi təqdim edilmişdir:

- kollektiv müdafiə;
- böhranın tənzimlənməsi;
- əməkdaşlıq əsasında təhlükəsizliyin təmini.

Sənəddə həmçinin NATO-da həmrəyliyin təmin edilməsi, sıx transatlantik məsləhətləşmələrin aparılması, daimi islahatlar prosesinin həyata keçirilməsinin zəruriliyi vurğulanırdı.

Konsepsiyada yeni dünyada təhlükəsizliyin şərtləri təsvir edilmişdi. Sənəddə qeyd olunurdu ki, NATO-nun təhlükələrin qarşısını almaq üçün tələb olunan müdafiə qabiliyyəti yeni səviyyəyə yüksəldilməlidir. Bu məqsədlə münaqişələrin nəzarət altına alınması və böhranların tənzimlənməsindən ötrü yeni siyasi kurs həyata keçirilməyə başladı. Strateji konsepsiyada həmçinin NATO-nun əməkdaşlıq yolu ilə beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsini necə reallaşdırmağa çalışacaqları da təsbit olunmuşdur. Bunun üçün NATO silahlanma üzərində nəzarət sahəsində, silahsızlanma və silahların yayılmaması istiqamətində daha ciddi səylər göstərəcəkdi. Bu səylərin reallaşması üçün NATO bütün Avropa ölkələrinə münasibətdə açıq qapı siyasətinə üstünlük verir və beləliklə də sözün geniş mənasında özünün tərəfdaşlıq münasibətlərini yetərincə dərinləşdirmiş olur. Strateji konsepsiyada NATO-nun həmişəki təyinatı, başlıca vəzifələri və prinsipləri vurğulanmışdır, daha sonra isə təşkilatın aparıcı məqsəd və vəzifələrinə xüsusi yer ayrılmışdır. Bütövlükdə NATO böhran tənzimləməsində hərtərəfli yanaşmaya üstünlük verir və böhranın bütün mərhələlərində təşkilatın iştirak etməsini nəzərdə tutur.

Hazırda dünyada fəaliyyət göstərən digər kollektiv təhlükəsizliyin təmin olunmasını qarşıya məqsəd qoyan təşkilat isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatıdı (KTMT). Bu təşkilat MDB çərçivəsində 1992-ci ilin mayında imzalanmış Kollektiv təhlükəsizlik haqqında müqavilə əsasında qurulmuş hərbi-siyasi birlikdir. Belə ki, 1992-ci il mayın 15-də Daşkənddə altı ölkənin (Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan və Ermənistan) nümayəndələri "Kollektiv təhlükəsizlik haqqında" müqavilə imzalamışdılar [28, s. 12]. 1993-cü ildə Gürcüstan, Azərbaycan və Belarus da bu müqaviləyə qoşuldular. Müqavilə 1994-cü il aprelin 20-də qüvvəyə

minmiş və beş il müddətinə nəzərdə tutulmuşdu. Beş illik müddət bitdikdən sonra, 1999-cu il aprelin 2-də prezidentləri ilə təmsil olunmuş altı ölkə – Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan növbəti beş illik müddət üçün müqavilənin etibarlığının uzadılması haqqında protokol imzaladılar. Azərbaycan, Gürcüstan və Özbəkistan müqavilənin etibarlığının uzadılmasından imtina etdilər.

2002-ci ilin mayında "Kollektiv təhlükəsizlik haqqında" müqavilənin iştirakçıları Moskvada keçirilən sessiyada tam hüquqlu bir beynəlxalq təşkilatın – "Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının yaradılması haqqında" qərar qəbul etdilər [34]. Həmin ilin oktyabr ayının 7-də Kişniyov sammitində təşkilatın Nizamnaməsi təsdiq olundu [28, s. 28]. Nizamnamənin 3-cü maddəsinə uyğun olaraq təşkilatın məqsədləri sülhün, beynəlxalq və regional təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsindən, kollektiv əsasda üzv dövlətlərin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin qorunmasından ibarətdir [36].

***Münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı müasir geosiyasi reallıqlar şəraitində***

Hazırda dünya siyasətşünaslığında "beynəlxalq təşkilat" anlayışı dövlətlərin və ya qeyri-hökumət xarakterli milli cəmiyyətlərin siyasi, iqtisadi, sosial, elmi-texniki, mədəni və digər sahələrdə ümumi məqsədlərə nail olmaq üçün qurduqları birlikləri ifadə edir. Beynəlxalq hüquq baxımından isə bu anlayışın dəqiq tərifinin verilməsi bir sıra çətinliklər doğurur. Beynəlxalq Ədalət Məhkəməsinin nizamnaməsinin 67-ci maddəsində bu anlayışdan Millətlər Cəmiyyəti və ya Beynəlxalq Əmək Təşkilatı kimi beynəlxalq qurumları təsvir etmək üçün istifadə etmişdir [10]. 2003-cü ildə BMT-nin Beynəlxalq Hüquq Komissiyası bu anlayışın hüquqi izahını verməyə cəhd göstərmişdir. Komissiyanın 55-ci sessiyasının hesabatında yazılırdı: *"Beynəlxalq təşkilat termini müqavilə və ya beynəlxalq hüquqla idarə olunan digər sənəd əsasında yaradılmış, beynəlxalq hüquq normalarına əsasən hüquqi şəxs olan təşkilata aiddir. Beynəlxalq təşkilatlara dövlətlərlə yanaşı, digər qurumlar da üzv ola bilər"[25, s. 18].*

Siyasətşünaslıqda və beynəlxalq hüquqda anlayışın necə izah edilməsindən asılı olmayaraq, beynəlxalq təşkilatların dövlətlər arasında çoxtərəfli əməkdaşlığın ən mühüm formalarından biri olması faktı dəyişməz olaraq qalır. Aparılan təhlillərdən də aydın olduğu kimi beynəlxalq təşkilatlar beynəlxalq hüququn xüsusi növ subyektləridir. Lakin onların hüquqi statusu dövlətlərlə eyni deyildir. Çünki beynəlxalq təşkilatların hüquqi statusu suverenlik hüquqlarından irəli gəlmir. Beynəlxalq təşkilatın öz səlahiyyətlərinin reallaşdırılması sahəsindəki hüquq və vəzifələrinin mənbəyini dövlətlərin maraqlarına uyğun olaraq bağlanmış beynəlxalq müqavilələrdən götürür. Beynəlxalq Ədalət Məhkəməsinin rəylərində beynəlxalq hüquqda siyasi sistemin oyunçularının hüquqlarının həcmi bir qurumdan digərinə dəyişə biləcəyi qeyd edilmişdir. Çex tədqiqatçısı Martin Faix yazır ki, beynəlxalq siyasi sistemin iştirakçılarından yalnız dövlətlərə beynəlxalq hüquq üzrə bütün hüquq və öhdəliklər verilmişdir. Onlar beynəlxalq hüququn ilkin, əsas və universal subyektləridir. Beynəlxalq hüququn digər subyektlərinin şəxsiyyəti məhduddur. Beynəlxalq təşkilatlar üçün onların ya təşkilatın

təsis sənədində açıq şəkildə təsbit olunmuş, ya da təşkilatın məqsəd və funksiyalarından irəli gələn hüquq və vəzifələri olduğu qəbul edilir [8, s. 50-51].

II Dünya müharibəsindən sonra dünya siyasi sistemində rolu sürətlə artan beynəlxal təşkilatlar XX yüzilliyin son onilliyində yeni çağırışlarla üz-üzə qalmışdır. Məlum olduğu kimi, 90-cı illərinin əvvəllərində dünyada vəziyyətin dəyişməsi, ikiqütblü sistemin iflasa uğraması ilə SSRİ-nin keçmişdə üstün olduğu geosiyasi məkanı, Avropa qitəsini, xüsusən onun şərq hissəsini daxili, lokal, regional münaqişələr dalğası bürümüş oldu. SSRİ-nin süqutu ərəfəsində müttəfiq respublikalarda azadlıq hərəkatlarının güclənməsi ilə yanaşı, bütün dünyada həm də qatı milliyyətçiliyin və irqçiliyin yüksəlməsi müşahidə edilirdi. Hətta bəzi təhlilçilər dünyada azadlıq hərəkatlarının deyil, milliyətçilik və irqçiliyin daha güclü hərəkat olmasına xüsusi diqqət yetirirdilər. Tədqiqatçılardan biri haqlı olaraq yazır ki, baş verən proseslər nəticəsində azadlıq özündən sonra nifrət azadlığını gətirmişdi. Ksenofobiya, şovinizm, antisemitizm və etnik düşmənçilik yüksəlirdi [9, s.13]. Gerçəkdən də, qatı milliyətçilik, irqçilik, ksenofobiya zəminində meydana çıxan münaqişələr beynəlxalq siyasətin ən çox məşğul olduğu məsələlərdən birinə çevrildilər. Bu prosesdə beynəlxalq təşkilatların rolunun önə çıxacağı gözlənilirdi. Bu bir tərəfdən dünyada münaqişələrin nizamlanmasında beynəlxalq təşkilatların iştirakının tarixi ənənələrindən irəli gəlirdi. Digər tərəfdən isə II Dünya müharibəsindən sonra münaqişələrdə beynəlxalq təşkilatların iştirakçılığını təmin etməkdən ötrü kifayət qədər hüquqi-siyasi əsaslar formalaşdırılmışdı.

Bütün bunlar dövlətlərin daxili işlərinə beynəlxalq hüquqa əsaslanaraq müdaxilə təcrübəsinin inkişafı üçün başlıca təkan rolunu oynadı. XX yüzilliyin 90-cı illərinin əvvəllərindən etnik münaqişələrin yayılması ilə bağlı olaraq proses gücləndi. Mülki əhali arasında çoxlu sayda qurbanlarla müşahidə olunan bu cür beynəlxalq xarakter daşımayan münaqişələrin sayının durmadan artması ilə bağlı olaraq beynəlxalq humanitar hüquq normalarına riayət edilməsi haqqında məsələlər mərkəzi yer tutmağa başlamışdı. Lakin bir daha qeyd etmək lazımdır ki, digər məsələlərdə olduğu kimi bu məsələlərdə də beynəlxalq hüququn prinsiplərinin tətbiqinə ikili standartlardan yanaşılmışdır. Məsələn, XX əsrin 80-ci illərinin sonlarından etibarən Ermənistanda bu ölkənin vətəndaşı və bölgənin aborigen sakinləri olan azərbaycanlılara qarşı ayrı-seçkilik siyasətinin yürüdülməsinə, 1988-1989-cu illərdə Ermənistan ərazisindən yarım milyona qədər azərbaycanlının deportasiya edilməsinə [15, s. 396] baxmayaraq, beynəlxalq təşkilatların və dövlətlərin proseslərə reaksiyası demək olar ki, müşahidə edilməmişdi. Statistik rəqəmlərin təhlili göstərir ki, təkcə 1990-cı ilin sentyabrında Azərbaycanda Ermənistandan qovulan 201 min azərbaycanlı, 2,5 min kürd, 1,5 minə qədər rus, var idi [17, s. 448]. Deməli, Ermənistanda təkcə aborigen azərbaycanlıların deyil, etnik azlıq statusu daşıyan digər qrupların da hüquqları pozulurdu. Halbuki 1949-cu ildə qəbul edilmiş dörd Cenevrə konvensiyası üçün ümumi olan 3-cü maddəyə əsasən dövlətlər hər hansı bir şəraitdə beynəlxalq humanitar hüquqa yalnız riayət etməyə deyil, həm də birlikdə və fərdi qaydada bu hüquqa riayət olunmasına məcbur etməyə borcludurlar. Bu maddə hətta müharibə dövründə belə hərbi əməliyyatlarda iştirak etməyən şəxsləri, əsir düşənləri, xəstələri, yaralıları və mülki əhalinin bütün digər

kateqoriyalarının qorunmasını nəzərdə tuturdu. Bu şəxslərə qarşı münasibətdə insan həyatına və ləyaqətinə qəsdi, qəddar rəftarı, işgəncə, əzab vermə, girov götürmə, ilkin məhkəmə qərarı olmadan ittiham etmə və cəzalandırma qadağan edilirdi [29].

## *Nəticə*

Təhlillər nəticəsində gəlinən qənaət ondan ibarətdir ki, XIX əsrin başlanğıcında yaranan ilk beynəlxalq təşkilatların qarşısında siyasi münaqişələrin həlli məsələsi dayanmamışdır. Lakin XX əsrin əvvəllərindən etibarən dünyada meydana çıxan beynəlxalq təşkilatların demək olar ki, əksəriyyətinin başlıca fəaliyyət istiqamətləri sırasında münaqişələrin həlli məsələsi ön planda olmuşdur. Münaqişələrin nizamlanması prosesində iştirakın hüquqi əsasları bir sıra təşkilatların quruluş müqavilələrində və nizamnamələrində əksini tapmışdır. Bəzi təşkilatın bu cür sənədlərində oxşar müddəalara rast gəlinməsə də, fəaliyyətlərinin genişlənməsi kontekstində birbaşa münaqişələrin nizamlanması ilə bağlı sənədlər qəbul etmək və ya qəbul edilən sənədlərdə bununla bağlı müddəaları müəyyənləşdirmək məcburiyyətində qalmışlar. Hazırki geosiyasi gerçəkliklər fonunda təşkilatların nizamlanmada iştirakının effektivliyi xeyli dərəcədə aşağı düşmüşdür. Bu baxımdan bir çox beynəlxalq təşkilatlarla bağlı islahat çağırışları meydana çıxmışdır. Münaqişələrin, xüsusilə də daxili münaqişələrin tənzimlənməsi üzrə regional təşkilatların müvafiq tədbirlər görə bilməsi üçün hazırlıqlı olmaları mühüm şərtlərdən biridir. Çünki belə təşkilatlar əsas məqsədi kimi üzv dövlətlərin iqtisadi əməkdaşlığının və sabitliyinin təmin edilməsini müəyyənləşdirirlər. Bu isə yalnız münaqişələrin olmadığı sülh şəraitində mümkündür.

**İstifadə edilmiş ədəbiyyat**


1. Agenda 2063. Africa we want. –Adis Ababa: African Union Commission, -2015. -20 p.
2. Andrew, J. C. Unblocking the UN Security Council: The Uniting for Peace Resolution // Journal of Conflict and Security Law, Volume 18, Issue 3, -Winter 2013, -pp. 453–480.
3. Arı, T. Uluslararası ilişkiler ve dış politika /T.Arı. –Bursa: Alfa Akademi, -2017. -605 s.
4. Charter of the Arab League: [Electronic resource] / Arab League, -1945. URL: https://arableague-us.org/wp/wp-content/uploads/2012/06/Charter%20of%20the%20Arab%20League.pdf
5. Diplomatiya: ensiklopedik lüğət / Baş red. N.Hüseynli. –Bakı: Diplomat, -2015. -578 s.
6. European Council, Council of the European Union, Committee for Civilian Aspects of Crisis Management (CivCom): [Elektron resurs] / Consilium.EU. -2000. URL: www.consilium.europa.eu/en/council-eu/preparatory-bodies/committee-civilian-aspects-crisis-management/
7. European Parliament, Treaty of Nice: [Elektron resurs] / The site of Europarliament. -2021. URL: www.europarl.europa.eu/about-parliament/en/in-the-past/the-parliament-and-the-treaties/treaty-of-nice
8. Faix, M. Law of international organizations / M.Faix. – Olomouc: Palacký University, -2012. -185 p.
9. Korey, W. The unanticipated consequences of Helsinki // Bulletin of Office for Democratic Institutions and Human Rights of OSCE. -1995. Vol. 3, №3. Special issue -pp. 8-14.

10. League of Nations, Statute of the Permanent Court of International Justice, 16 December 1920: [Electron resource] / Refworld, -2022/ URL: www.refworld.org/docid/40421d5e4.html [accessed 5 June 2022]
11. Matei, F. C. NATO and conflict resolution: / Doctoral dissertation/ -Monterey, 2001. - 71 p.
12. OSCE High Commissioner on National Minorities: [Electronic resource] / The offical site of OSCE, -2022. URL: https://www.osce.org/hcnm
13. Patton, S. The Peace of Westphalia and it Affects on International Relations, Diplomacy and Foreign Policy // The Histories. -2019. Vol. 10. İssue 1. –pp. 91-99.
14. Petersen, K. S. The Uses of the Uniting for Peace Resolution since 1950 // International Organization, vol. 13, no. 2, -1959, - pp. 219–232.
15. Qasımlı, M., Muradova, B. Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] / M.Qasımlı, B.Muradova. –Bakı: Mütərcim, -2018. c. II. –680 s.
16. Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: [2 cilddə] / M.C.Qasımlı. -Bakı: Mütərcim, -c. 2. -2015. – 664 s.
17. Qasımlı, M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). -Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, -2016. –520 s.
18. Schmitt, B. European capabilities: how many divisions // EU Security and Defence policy: the first five years (1999-2004) / Ed. N.Gnesotto, J.Solana. –Paris: İSS EU, -2004. –pp.89-102.
19. The OSCE and the Effectiveness of their Conflict Management and Missions: [Electronic respurce] / -Munich, GRIN Verlag, -2019. URL: www.grin.com/document/1023042
20. United Nations Charter, Chapter IV: The General Assembly [Electronic resource] / The official site of UN, -2022. URL: www.un.org/en/about-us/un-charter/chapter-4
21. United Nations Charter, Chapter VII: Action with Respect to Threats to the Peace, Breaches of the Peace, and Acts of Aggression: [Electronic resource] / The official site of UN, -2022. URL: https://www.un.org/en/about-us/un-charter/chapter-7
22. United Nations Charter, Chapter XV: The Secretariat: [Electronic resource] / The official site of UN, -2022. URL: www.un.org/en/about-us/un-charter/chapter-15
23. Uniting for peace 377 (V): [Electronic resource] / General Assembly – Fifth session. URL: www.un.org/en/sc/repertoire/otherdocs/GAres377A(v).pdf. –pp. 10-12.
24. Woodrow, W. The Papers of Woodrow Wilson / Ed. Arthur S. Link. –Washington, Volume 45 (November 11, 1917-January 15, 1918). -1984. -656 p.
25. Yearbook of the İnternational Law Comission. New York and Geneva: UN, -2010. -106 p.
26. Youssef, H. Mediation and Conflict Resolution in the Arab World: The Role of the Arab League // - Baden-Baden: OSCE Yearbook 2013, -2014, -pp. 299-310.
27. Аннан, К.А. Генеральный секретарь ООН. Проблема вмешательства / К.А.Аннан. Москва, -1999. - 100 с.
28. Довгань, Е.Ф., Розанов, А.А. Организация Договора о коллективной безопасности (2002-2009) / Е.Ф. Довгань, А.А. Розанов. – Минск: Ковчег, -2010. – 140 с.
29. Женевские конвенции и протоколы к ним [Электронный ресурс] / Сайт ООН, -2021. URL: www.un.org/ru/humanitarian/law/geneva.shtml

30. Кулагин, В.М. Международная безопасность. / Учебное пособие для студентов вузов / В. М. Кулагин. - Москва: Аспект Пресс, -2007. - 318 с.
31. Международное публичное право. Сборник документов. Приложение к учебнику «Международное публичное право» / Сост. Д.К.Бекяшев. - М.: Проспект, -2009. - 1200 с.
32. НАТО, Активное участие, современная оборона [Elektron resurs] / НАТО, -2021. URL: www.nato.int/cps/ru/natohq/official_texts_68580.htm
33. Новикова, Д.О. Новые инструменты международного кризисного урегулирования: опыт Европейского союза / Д.О. Новикова. -М.: МГИМО Университет, -2009. -112 с.
34. От Договора к Организации, История создания, основы деятельности, организационная структура: [Электронный ресурс] / Сайт ОДКБ, -2021. URL: https://odkb-csto.org/25years/
35. Пустогаров В.В. "... С пальмовой ветвью мира" Ф.Ф Мартенс - юрист, дипломат, публицист / В.В. Пустогаров. - Москва: Междунар. отношения, -1993. -288 с.
36. Устав Организации Договора о коллективной безопасности. 07.10.2002: [Электронный ресурс] / Сайт ОДКБ, -2012. URL: https://odkb-csto.org/documents/documents/ustav_organizatsii_dogovora_o_kollektivnoy_bezopasnosti_/#loaded
37. Язькова, А.А. Саммит ГУАМ: намеченные цели и возможности их реализации // Европейская безопасность: события, оценки, прогнозы. — Институт научной информации по общественным наукам РАН, Вып. 16. -2005. -с. 10-13.

**Aynur Alishanova**

## THE ROLE OF INTERNATIONAL ORGANISATIONS IN THE PROCESS OF RESOLUTION OF CONFLICTS: HISTORICAL TRADITIONS, LEGAL FUNDAMENTALS AND GEOPOLITICAL REALITIES

***Summary***

*Conflicts are an essential and ever present aspect of global policy. Every actor in international relations has, in one way or another, been involved in the conflict settlement processes since its inception. From the dawn of the 20$^{th}$ century, the role of international organisations, along with states, has come to the fore in the process of conflict resolution worldwide; their role in the settlement process has changed depending on the historical scenarios, as well as the nature and scale of conflicts.*

*The main purpose of this article is to analyse the historical role of international organisations in the conflict settlement process and to determine the legal basis for the participation of international organisations in conflict settlement, while assessing it against the background of geopolitical realities.*

*The current research refers to the theories of both idealism and realism depending on the historical timespan. Comparative analysis, a systematic approach, and analytical entry are the main methods used in this research. Moreover, content analysis of documents of international organisations was conducted to determine the legal framework for the participation of international organisations in the regulatory processes.*

*According to the analysis, the first international organisations that emerged at the beginning of the 19th century were not tasked with the issue of resolving political conflicts. However, since the beginning of the 20th century, the issue of conflict resolution has been at the forefront of the activities of almost all international organisations worldwide.*

*The legal basis for participation in the conflict settlement process is reflected in the founding agreements and charters of a number of organisations. Some organisations, in the context of expanding their activities, have been forced to adopt documents that directly relate to the settlement of conflicts or to define the relevant provisions in the adopted documents. Amidst the current geopolitical realities, the effectiveness of organisations' participation in the settlement processes has significantly decreased. In this regard, there have been calls for reform in many international organisations.*

***Keywords**: conflict, international organisation, settlement, UN, OSCE, European Union, NATO*

**Айнур Алишанова**

## РОЛЬ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ В ПРОЦЕССЕ РАЗРЕШЕНИЯ КОНФЛИКТОВ: ИСТОРИЧЕСКИЕ ТРАДИЦИИ, ПРАВОВЫЕ ОСНОВЫ, ГЕОПОЛИТИЧЕСКИЕ РЕАЛИИ

### *Резюме*

*С начала XX века роль международных организаций, наряду с государствами, вышла на первый план в процессе разрешения конфликтов в мире, так как конфликты являются важным и постоянно присутствующим компонентом мировой политики. Каждый из акторов системы международных отношений был вовлечен в процесс урегулирования конфликта в той или иной форме с момента его зарождения. Роль международных организаций в процессе урегулирования менялась в зависимости от исторических обстоятельств, характера и масштабов конфликтов.*

*Основная цель статьи – проанализировать историческую роль международных организаций в процессе урегулирования конфликта, определить правовую основу участия международных организаций в урегулировании и дать ее оценку в контексте геополитических реалий.*

*Данное исследование ссылается на теории идеализма и реализма в зависимости от исторического отрезка времени. Сравнительный анализ, системный подход, аналитический анализ – это основные методы, которые применялись при проведении исследования. Кроме того, в данной статье был проведен контент-анализ документов международных организаций для определения правовых основ участия в регуляторных процессах международных организаций.*

*В результате анализа делается вывод о том, что перед первыми международными организациями, возникшими в начале XIX века, не стояла задача разрешения политических конфликтов. Однако с начала XX века проблема разрешения конфликтов является приоритетом в основной деятельности практически большинства международных организаций в мире.*

*Правовая основа участия в процессе урегулирования конфликта отражена в учредительных договорах и уставах ряда организаций. Некоторые организации в связи с расширением своей деятельности были вынуждены принять документы, непосред-*

*ственно связанные с урегулированием конфликтов, или определить соответствующие положения в уже принятых документах. На фоне современных геополитических реалий эффективность участия организаций в урегулировании конфликтов существенно снизилась. В связи с этим прозвучали призывы к проведению реформ во многих международных организациях.*

***Ключевые слова:*** *конфликт, международная организация, урегулирование, ООН, ОБСЕ, Европейский союз, НАТО*

Daxilolma tarixi: 17.04.2022
Çapa qəbul edilmişdir: 10.05.2022